# AZƏRBAYCANDA NOVRUZ BAYRAMI VƏ "KOSA-KOSA" TAMAŞASI

## Novruz Holiday and The Spectacle "Kosa-Kosa"

**Tahir ORUCOV**[*]

***Abstract:*** *In the article the roots, the sources, some information in the historical resources about the national holiday of Azerbaijan "Novruz" are investigated. In the investigation the spectacle "Kosa-kosa" which is spread in Azerbaijan, its subject and main participants are studied.*

***Keywords:*** *Azerbaijan, holiday, Novruz, folk games, the spectacle "Kosa-kosa"*

Qədim bayramlarımızdan olan Novruz bayramı Azərbaycanda ən çox sevilən, xalqın maddi və mənəvi dəyərlərinin böyük bir hissəsini özündə əks etdirən mühüm mədəniyyət hadisəsidir. Hazırda Milli bayram kimi qeyd olunan bu bayram, çox dərin köklərə malikdir. Hərfi mənası "Yeni gün" olan Novruz bayramına müxtəlif dövrlərdə müxtəlif adlar verilmişdir. "Novruz" anlayışı bəzi deyiliş fərqlərilə bir çox türk xalqlarının dillərində işlənməkdədir: Azərbaycan türkcəsində Novruz (Noruz), Qırgız türkcəsində Noovruz, Özbək türcəsində Növroz, Başqırd türkcəsində Nevruz, Tatar türkcəsində Navruz, Uygur türkcəsində Noruz, Çuvaş türkcəsində Naurus, Başqırd türkcəsində Nevruz, Krım türkcəsində Nevrez, Qərbi Trakiya türkcəsində Mevriz, Qaqauz türkcəsində Babu Mata-Kürklü Marta və s. Burada Novruz anlayışının etimaloji mənası "Yeni il-ilbaşı" deyil, "Yeni gün" oldugu müəyyənləşdirilmişdir" (1, 15). Türkiyədə isə bu bayrama Gündönümü və ya Yılbaşı deyildiyi məlumdur.

Şimal yarımkürəsinin bir sıra ölkələrində- Türkiyədə, İranda, Əfqanıstanda, Türkmənistanda, Qazaxıstanda, Özbəkistanda, Qırgızıstanda, Tacikistanda, Başqırdıstanda, Tatarıstanda, Çuvaşiyada o cümlədən Azərbaycanda hər ilin mart ayında Novruz bayramını geniş şəkildə qeyd olunur. Qədim dövrlərdə Orta Asiyada, İranda və Əfqanıstanda Novruz təkcə xalq bayramı kimi deyil, eyni zamanda dövlət bayramı kimi qeyd edilmişdur. Tarixi qaynaqların məlumatlarına

---
[*] AMEA Folklor İnstitutu

görə həmin vaxt insanları müəyyən əlamətlərinə görə sosial qruplara bölürdülər. Novruz bayramı bir ay davam edirdi və hər sosial qrupa beş gün ayrılırdı. Yəni hər bir sosial qrup Novruz bayramını onun üçün ayrılmış beş gündə qeyd edirdi. Məsələn, qədim İranda ilk beş gün padşaha, ikinci beş gün saray əyanlarina, üçüncü beş gün saray xidmətçilərinə və ali ruhanilərə aid olurdu (11, 34). Müasir dövrümüzdə də bir sıra ölkələrdə Novruz həm xalq bayramı, həm də dövlət bayramı kimi qeyd edilməklə yanaşı, eyni zamanda təqvim ilinin başlangıcı hesab olunur. Belə ki, hal-hazırda "Martın 21-i İran və Əfqanıstanda rəsmi təqvimin ilk günü sayılır." (2, 284)

Novruzun əsasında hər bir xalqın qədim xalq mərasimləri dayanır. Novruz Türkiyədə, İranda və Əfqanıstanda tarixin bütün dönəmlərində maneəsiz bayram kimi qeyd olunsa da, Mərkəzi Asiyanın türk respublikalarinda- Türkmənistanda, Qazaxıstanda, Özbəkistanda, Qırgızıstanda, o cümlədən Azərbaycanda, Tacikistanda, Başqırdıstanda, Tatarıstanda, Çuvaşiyada Novruz XX əsrin əvvəllərindən başlayaraq 1960-cı illərə qədər bir sıra siyasi səbəblərə görə qadagan olunmuş və unutdurulmaga çalışılmışdır. Lakin ötən əsrin 90-cı illərindən etibarən öz müstəqilliklərini elan edən possovet məkanının adları çəkilən türk dövətləri, və Tacikstan öz keçmişinə, adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə diqqəti artırmış və Novruz bayramını da yüksək, rəsmi səviyyədə bayram etməyə başlamışdır.

Novruzun mənşəyi haqqında müxtəlif mülahizələr mövcuddur." Yaz bayramı" adı ilə Novruzun qeyd edilməsi haqqında ilk yazılı məlumat bizim eradan əvvəl 505-ci ilə aiddir (13). Mirəli Seyidovun fikrincə Novruz mövsüm mərasimi ilə baglı yaz bayramıdır. (12). Novruzun mənşəyi haqqında daha bir maraqlı mülahizə Hüseyn İsmayılova məxsusdur. Tədqiqatçının fikrinə görə, "Novruz" dünyanın və insanın yaradılmasının bayramıdır və dünyanın yaranmasında iştirak edən dürd ünsür: su, od, yel və torpaq dörd çərşənbədə qeyd edilir. Bu yaradılış prosesinin sonu isə bayram kimi qeyd olunur ki, bu bayram da Novruz bayramı adlanır (14, 12). Kamil Hüseynoğlunun mülahizəsinə görə isə Novruz bayramı qədim turanlıların "Tura" bayramıdır (15, 96-104).

Novruz bayramının mənşəyi, etimologiyası, onunla baglı yaranan əsatirlər, miflər, əfsanələr, rəvayətlər və s. nümunələrin tarixi də çox qədimdir. Novruz bayramı ilə baglı araşdırma aparan tədqiqatçılar Novruz bayramının məhz Yaxın Şərqin qədim əkinçiliklə məşgul olan xalqları arasında yarandıgını qeyd edirlər. Hər bir xalq Novruz bayramı ilə baglı etnik, yerli və milli xüsusiyyətlərinə uygun, özünəməxsus mərasim nəgmələri, mövsüm nəgmələri, rəqslər, xalq oyunları yaratmışdır.

Azərbaycanda milli adət-ənənəyə uygun olaraq Novruz bayramında göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının, əkinçiliyin rəmzidir. Hər bir azərbaycanlı səməni göyərtməklə növbəti ilə bərəkət, bollluq, ruzi arzulamış, Novruz bayramına dörd həftə qalmış hər çərşənbə axşamı və bayram günü tonqal qalamaqla, mahnı oxumaqla oda, atəşə, Günəşə olan etiqad və inamlarını ifadə etmişdir. “Novruz ulu əcdadlarımızın əski bayramlarından olmuş, insana həyat verən dörd ünsürün-Suyun, Odun, Yelin, (havanın), Torpagın isinməsi,” dirilməsi” istəyi ilə baglı yaranmışdır. Əski inamlara görə insana fayda verməyən “ölü” hesab edilirdi. Məhz bu mənada torpagın məhsul verməsini “dayandırması”, onun “donması” insanin ən zəruri həyat nemətlərindənməhrum olması kimi dərk edilirdi. Yıgilan azuqə ehtiyatı tükəndikcə, insanda torpagı oyatmaq, əkmək arzusu artırdı. Torpaq isə birdən-birə “dirilmirdi”, oyanmırdı. Onun oyanması üçün su, istilik (od, Günəş) və yel, (hava) lazım idi. Elə bu arzu ilə baglı xalq çox qədimdən həmin dörd ünsürlə əlaqədar özünün zəngin adət-ənənə, etiqad və ayinləriniyaratmışdir. Təzə ilin başlanmasına dörd həftə qalmış bu ayin və etiqadlar icra olunmaga başlamışdır.

Hər bir çərşənbə təbiətin bir ünsürü ilə əlaqələndirilmiş və beləliklə, əcdadlarımızın əski təsəvvürlərində “ilaxir çərşənbələr” yaxud “ilin axır çərşənbələri” yaranıb müqəddəsləşmişdir. Əski inamlara görə bu çərşənbələrin hər birində təbiətin dörd ünsüründən biri “dirilmiş”, bədii təfəkkürdə insan cildində təsəvür edilən hər bir çərşənbə ilə baglı xalq böyük şənlik və mərasimlər düzəltmişdir” (3, 2-3)

Bütün bu mərasimlər İslamdan çox-çox əvvəl mövcud olmuş Qədim Şərq adət-ənənələrinin davamıdır. Novruz bayramını qeyd edən əksər xalqlar, ocümlədən Azərbaycan xalqı bu bayramın əsl mahiyyətindən dogan bir sıra adət-ənənələri, oyunları indiyədək saxlamışdır. Orta əsr müəllifləri Şərq ölkələrində İslam dini yayıldıqdan sonra da Novruz bayramında mövcud olan əvvəlki adət-ənənələrinin, inam və etiqadların yenə də xalqın məişətində geniş yer tutdugunu yazırdılar. Əbu Reyhan Biruni (XI əsr) Novruz bayramı haqqında mqxtəlif rəvayətlərdən, onun yaranması səbəblərindən, bu bayram münasibəti ilə xalq arasında yayılmış adət -ənələrdən bəhs etmiş, Novruz bayramının təbiətn oyanması, əkinçilik təsərrüfatının başlanması ilə baglı əsl dünyəvi bayram oldugunu qeyd etmişdir. (4). Nizamülmülk (XI əsr) isə “Siyasətnamə “əsərində Novruz bayramından yazın gəlişi ilə əlaqədar keçirilən kütləvi xalq bayramı kimi bəhs etmişdir. (5) Bundan başqa, Novruz haqqinda məlumatlara Mahmud Kaşgarlının “Divanü Lugat-it türk” (6), Yusif Balasaqunlunun “Kudaqdu biliq” (7), Ömər Xəyyamın “Novruznamə” və “Traktatlar” (8-9), Nizami Gəncəvinin “İsgəndərnamə” (10) və b. əsərlərdə rast gəlirik. Novruzun gəlişi klssik Şərq

ədəbiyyatında, o cümlədən Azərbaycan poeziyasında geniş yayılmış bahariyyə adlı lirik şeirlərdə də təsvir və tərənnüm edilmişdir. Nəriman Nərimanov da Novruz bayramının islamiyyətdən əvvəl yaranmış ümumxalq bayramı olduğunu qeyd etmişdir. (2, 284)

Azərbaycanda Novruz bayramı qabağı, adətən, evlərdə, həyətlərdə abadlıq, təmizlik işləri aparılır, agaclar və güllər əkilirdi. Novruza on beş gün qalmış, əsasən, uşaqlar, yeniyetmələr və cavanlar yumurta döyüşdürməyə başlayırdılar. Novruz bayramında cürbəcür şirniyyat növləri: qogal, fəsəli, paxlava, şəkərbura, şəkərçörəyi və s. hazırlanır, plov bişirilir, rəngbərəng yumurtalar boyanır, məcməyi və sinilərdə xonça bəzənir, şam yandırılır, tonqal qalanır, səməni qoyulurdu. Bundan başqa, Novruz qabağı ölənlərin ruhu yad edilir, küsülülər barışır, qonum-qonşular bir-birinə qonaq gedir, pay göndərirdilər. Aşıqlar baharı, Novruz bayramını mədh edir, oglan və qızlar təzə paltar geyinir, çalıb-oynayır, yallı gedirlər. Cavanlar at çapır, bir-biri güləşir, yallı gedir, milli xalq oyunları və tamaşalarından olan “Haxışta”, “Bənövşə”, “Dirədöymə” oynayar, “Tənbəl qardaş”, “Kosa-kosa” və s. kimi tamaşalar göstərərdilər.

“Kosa-kosa” tamaşası Азярбайъанda geniş yayılmış belə tamaşalarından biri olub, ilin axır çərşənbə günündə oynanılardı. Bu tamaşada Kosa, onun köməkçisi olan ikinci bir Kosa və Keçi iştirak edirdi. Çox zaman isə həmin köməkçi olan ikinci Kosanın əvəzinə səhnəyə Yalançı pəhləvan çıxırdı. Yalançı pəhləvan isə indi sirklərdə çıxış edən təlxəyi-klounu xatırladırdı. Kosa geyinib tamaşaya hazırlaşır: üzünə maska taxır, başına şiş papaq qoyur, geydiyi uzun ləbbadənin altına yogun qurşaq sarıyır, zınqırovlar asır, çömçə götürür. Onun üzünə taxdıgı maskada isə kosalıq əlamətləri özünü aydın göstərir.

Köməkçi Kosa tamaşanı başlayıb:

A kosa, kosa gəlsənə,
Gəlib salam versənə, -
deyə baş Kosanı oyuna dəvət edir. Sonra isə əlavə edir:
Boşqabı doldursana,
Kosanı yola salsana.

Kosa çıxan kimi camaat onun xarici görünüşünə, zınqırovların səsinə gülür, Kosa üst-başını göstərir, qarnına əl vuraraq deyir:

Yediyim yarma aşı, yarısı sudu,
Geydiyimyeddi qat paltar, təzəsi budu.

Sonra o, dövrə vurmuş camaata müraciətlə kömək istəyir. Ancaq heç kim ona heç nə vermir. Kənarda dayanmış cənclər dəstəsi oxuyur:

Kosam bir oyun eylər,
Qurbanın qoyun eylər.
Yıgar Şabran düyüsün,
Mahmudun toyun eylər.

Kosa əvvəlki hərəkətlərini davam etdirir, camaata əl uzadaraq hərlənir. Camaat isə oxuyardı:

Ay uyrugu- uyrugu,
Əritmişəm quyruğu.
Saqqalı it quyruğu,
Bığları yovşan Kosa.

Köməkçi vəziyyəti belə gördükdə Kosanı öz arxasında gizlədər və çamaatı sakit etmək üçün deyərdi:

Kosam mənim qanlıdı,
Qolları mərcanlıdır.
Kosama əl vurmayın
Yazıq iki canlıdır.

Camaat sakitləşərdi. Bundan sonra Kosa ilə köməkçi arasında belə bir səhnəcik göstərilərdi: Kosa ağlayardı, köməkçi onun nə üçün ağladığının səbəbini soruşardı. Kosa uzun səfərə gedəcəyini, lakin bunun üçün pulu və yeməyi olmadığını, camaatın isə ona yardım etmək istəmədiyini söyləyərdi. Onlar fikirləşib bir yol tapardılar. Köməkçi:

-Mən yol tapmışam.

-Nə yol?

-Gedim keçini gətirim, o alar.

Kosa da razılaşardı. Köməkçi keçi cildinə girmiş bir nəfəri tutub məclisə gətirərdi. Bu keçinin uzun saqqalı hamının nəzərini cəlb edərdi. Kosa onun saqqalından tutub soruşardı:

-Keçi baba mən gələndə sənin bu boyda saqqalın yox idi, bunu haradan almısan?

Keçi gülməli səslər çıxaraq, cavab verərdi.

-Hara getmişdim, orada uzatmışam.

Yenə də bir sıra gülməli hərəkətlərdən sonra Kosa uzun səfərə gedəcəyini söyləyir və ona xərc toplamağı keçidən xahiş edir. Keçi agzına balaca bir çubuq alır, bəyirə-bəyirə adamlara yaxınlaşır və hərənin əlinin üstünə bir dəfə vurur. Hərə bacardıgı qədər pul və pay verirdi. Keçi yıgdıgı şeylərin hamısını Kosaya verərdi. Kosa bunları köməkçisi ilə bölüşərdi. Keçiyə heç nə verməzdilər. İndi də Keçi aglamaga başlardı, uşaqlarının ac və çılpaq olduğunu söyləyərdi. Bu tərəfdən də məclisə mələyə-mələyə iki keçi balası gələrdi. Onlar dogrudan da çox yosul bir geyimdə olardılar. Keçinin balaları və özü Kosaya yalvarardılar. Kosa onlara heç nə verməzdi. Keçi balalarını evə göndərib təzədən camaatdan pay toplayardı. Kosa bunları da onun əlindən alardı... Nəhayət, Kosa ilə keçi dalaşardı. Kosa keçini məclisdən çıxarıb qovardı... Kosa səfərqabağı dincəlmək üçün ağacın altında uzanıb yatardı, köməkçisi isə ya gəzməyə gedər, ya da başqa işlə məşğul olardı. Onun bu hərəkətləri gülüş doğurardı...

Keçi köməkçinin başının qarışıq olmasından istifadə edərək Kosaya yaxınlaşar və qəflətən onu vurub öldürərdi. Camaat Kosaynın ölümünü, keçinin intiqamını alqışlayardı. Keçi yenə köməkçiyə görünmədən çıxıb gedərdi. Bundan sonra köməkçi Kosaya yaxınlaşar, onu oyatmağa çalışardı... Köməkçinin ölmüş Kosanı oyatmaq istəməsi olduqca gülməli olardı. Axırda onun öldüyünü müəyyən edib:

Arşın uzun, bez qısa,
Kəfənsiz öldü Kosa, -

deyə onun üstünə yıxılıb ağlayardı... Onun ağlamağı şən gülüş doğurardı. Bundan sonra məclisə qələbə çalmış keçi və onun balaları daxil olardı. Onlar da nəğmə oxuyardılar:

Novruz-novruz bahara,
Güllər-güllər nahara.
Bağçanızda gül olsun,
Gül olsun, bülbül olsun.

Bundan sonra oyunda iştirak edənlər xorla camaata müraciət edirdilər:

Həcələr, hücələr,
Gəldi əziz gecələr.

Bu nəğmələrlə evlərdən pay yığar, sonra böyük bir şənlik düzəldər, yığılan şeyləri birlikdə yeyərdilər. (16, 96-98)

Göründüyü kimi, burada qarşı-qarşıya qoyulan iki surət vardır: birisi Kosa, o birisi isə kecidir. Kosa qışın, keci isə yazın, yaşıllıgın, həyatın, baharın rəmzidir. Xalq keçini alqışlayır, ona rəğbət bəsləyir. Kosanın cılpaq, tüksüz olması qışda təbiətin öz yaşıl paltarını soyunması ilə üzvi surətdə bağlıdır.

Məişət nağıllarımızda mənfi qəhrəman kimi tanıdığımız Kosaya münasibət necədirsə, burada da rəmzi olaraq qışı təmsil edən Kosa eyni cür təsvir edilmişdir. O, insanları soyan, aç qoyan, istismar edən mənfi bir tipdir. Belə nağıllarımızın müsbət qəhrəmanları olan kecəllə keci arasında da müyyən yaxınlıq vardır. Yəni onların hər ikisi intiqam alandır.

Maraqlıdır ki, Novruz bayramından sonra da qışın keçi üzərinə hücümu, onu məğlub etmək, balalarını ac-susuz qoymaq arzusu davam edir. Lakin qış əvvəlki kimi açıq-açığına, hücüma keçə bilmir, o, xəyanətə əl atır. Belə ki, Novruzdan on beş, iyirmi gün sonra xalq arasında "qarının borcu" adlanan soyuq və çovğunlu gündən danışılır. Bu, qışın sonuncu hücümudur... Guya qış baharı aldadır, ondan üç gün borc alır ki, keçinin balalarını öldürsün. Qışın məğlub olması, onu baharın əvəz etməsi keçini sevindirir. Keçi balalarını açıq havaya çıxarır. İlıq bahar günəşi keçi balalarını sevindirir. Hətta qarı: "Mart, gözünə barmağım, yaza çıxdı oglagım" - deyir. Bu zaman qış borc aldıgı üç günü "işə salır", tufan qoparır. Keşinin balalarının bir neçəsi çovguna düşüb ölür. Məhz buna görə də, xalq arasında "qarının borcu" ifadəsi yaranmışdır. (17, 88)

Novruz bayramında oynalınan bu "Kosa-kosa" tamaşasının əsas qayəsi, başlıca ideyası qışn qovulması, məğlub olması, baharın qarşılanmasıdır. Heç də təsadüfi deyildir ki, Kosanı- yəni qışı Keçi- bahar öldürür və bunula da hamını sevindirir. Bütün dünya xalqlarında bu tamaşa bu və ya digər dərəcədə özünü göstərməkdədir. Əvvəlcə mərasim şəklində yaranan bu tamaşa zaman keçdikcə inkişaf etmiş, onda dramatik ünsürlər artmış, həm də buraya ictimai-siyasi motivlər əlavə olunmuşdur.

Görkəmli aktyor Hüseynqulu Sarabski də öz xatirələrində Bakıda bahar bayramı münasibətilə keçirilən "Kosa-kosa" oyunu haqqında yazırdı: "Kosa-kosa" oyunu qədim bir oyun idi. Bir nəfər zirək uşağa kürkü tərsinə geyindirib, bir parça çitdən üzünə maska taxar və kəllə qənd kağızından başına şiş papaq qoyar,

ayaqlarına uzun ağac və boynuna da zınqırov salıb məhlə uşaqları evbəev gəzdirib oynadardılar. Kosanı oynadarkən mahnılar da oxudardılar" (18, 26). Müəllif yuxarıda misal çəkdiyimiz mahnılardan birini də burada misal gətirir. Göründüyü kimi, H. Sarabski əsl mənada teatr tamaşasını deyil, ötərgi şəkildə, uşaqların dar çərçivədə düzəltdiyi oyunu təsvir edir. Buna baxmayaraq H. Sarabskinin bu qeydi "Kosa-kosa" oyunun hətta Bakının özündə də təşkil edildiyini sübüt etməkdədir. Ə. Haqverdiyev qədim azərbaycanlıların təşkil etdiyi tamaşalarını yunanların "Dionis" i ilə əlaqədar mərasim tamaşaları ilə müqayisə etmiş və müəyyən oxşarlıqlar tapmışdır. (19, 389)

**Ədəbiyyat**

1. Açkora Erginoz. Tarihimizdə və Kültürümüzdə Nevruz. Elazığ Eğitim, Sanat, Kültür, Araştırma, Tanışma ve Hizmet yayınları. Elazığ, 1999.

2. Азярбайъан Совет Енсиклопедийасы: 10 ъилддя, VЫЫ ъ. Бакы, 1983.

3. İlaxır çərşənbələr. Bakı, Azərnəşr, 1992.

4. Biruni Əbu Reyhan. Asarul Baqiye (Pamyatniki minuvşix pokoleniy). Taşkent, 1975. oxuş-otel. com

5. Nizamülmülk. Siyasətnamə. Bakı, 1989

6. Kaşgarlı Mahmud. Divanü Lugat-it türk. Ankara, 1985

7. Валитова А. О некоторых поэтических особенностях "Кутадгу билиг". Москва, 1960

8. Xəyyam Ömər. Novruznamə. Farhang. Al-shia. ru

9. Хаййам Омар. Трактаты. Москва, 1961

10. Gəncəvi Nizami. İsgəndərnamə. Bakı, 1983

11. Xəlil Agaverdi. "Novruz" un strukturu: Arxaik ritual, təqvim və bayram. //" Dədə Qorqud" elmi-ədəbi toplusu, 2010, N1, s. 31-68

12. Seyidov Mirəli. Yaz bayramı. Bakı, Gənclik, 1990

13. Mirzə Agalar, Mehdiyev İntiqam. Novruz töhfələri. Bakı, Gənclik, 1990

14. İsmayılov Hüseyn. Bahar gəlir, yaz gəlir. //" Ülfət" qəzetinə müsahibə, 19 mart 2010, s. 12.

15. Hüseynoğlu Kamil. Qədim Turan: mifdən tarixə doğru. Bakı, "MBM", 2006, s. 96-104.

16. Вялийев Baqif. Азярбайъан folkloru. Бакы, Маариф, 1985.

17. Яфяндийев Паşа. Азярбайъан шифащи халг ядябиййаты. Бакы, Маариф, 1981.

18. Sarabski Hüseyn. Köhnə Bakı. Bakı, 1958.

19. Haqverdiyev Əbdürrəhim. Azərbaycanda teatr. Seçilmiş əsərləri, II cild. Bakı, 1957.